*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 mart 2017-ci il № 20 (2137) Qiymətı 25 qəpik

## "Ermənistan cəlbedici ölkə olsaydı, insanlar qalmağı tərk etməkdən üstün tutardılar"

Bir neçə gün əvvəl Ermənistan prezidentinin MEDEF-də çıxış edərkən investorları öz ölkəsinə investisiya yatırmağa inandırmaq əvəzinə, tamamilə əsassız iddialarla Azərbaycanı, onun iqtisadiyyatını nüfuzdan salmağa çalışdığını mənə deyəndə təəccübləndim. O, innovasiyalar barədə danışırdı, deyirdi ki, Ermənistan innovasiyalar ölkəsidir. Açığını deyim, biz Azərbaycanda buna gülürdük, çünki çox məşhur bir deyim var - əgər bu qədər ağıllısansa, niyə bu qədər kasıbsan.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə Fransa Şirkətlər Hərəkatının (MEDEF) biznes şurasının üzvləri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib: "Ermənistanın təbii ehtiyatlara malik olmaması faktı o demək deyil ki, xalq bundan əziyyət çəkməlidir. Fransa da daxil olmaqla, dünyanın əksər inkişaf etmiş ölkələrinin təbii ehtiyatları yoxdur. Lakin onlar düzgün idarəçilik, şəffaflıq, etibarlılıq, standartlar, təhsil, bilik və innovasiya sayəsində öz ölkələrini inkişaf etdirirlər. Ona görə də Ermənistan prezidenti fransız şirkətlərinə nağıl danışmaq əvəzinə, yaxşı olardı ki, diqqəti əhalisinin yarısından çoxu gələcək üçün heç bir perspektivi olmayan, yoxsulluq həddindən də aşağı yaşayan ölkədəki dəhşətli iqtisadi vəziyyətə cəmləsin. Onların rəsmi statistikasına görə, hər il Ermənistanı 60 min insan tərk edir, bizdə olan məlumata görə isə bu rəqəm 100 minə yaxındır. Əgər bu ölkə belə yaxşı və cəlbedici olsaydı, ola bilsin ki, insanlar qalmağı tərk etməkdən üstün tutardılar".

## Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 15-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşik, onun səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Xristo Xristov və Piter Şvedberq aparacaqlar.

Ali Baş Komandan İlham ƏLİYEV:

*Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır.*




*Günün günorta çağıdır. Yolumuz qarlı dağlara, meşələrədir. Murovun mehi əsən bu yerlərdən bənövşənin, nərgizin ətri duyulardı. 25 ildən artıqdır ki, bu dağlarda bitən bənövşə də, nərgiz də sanki ətrini dəyişib. İndi bu yerlərin bənövşəsi də, nərgizi də barıt qoxuyur.*

...Düşmənlə yaxın məsafədə yerləşən həmin dağlarda topdağıtmaz istehkamlarımız ucalır. Yaxınlıqda yerləşən kənd adamları səhər açılanda ilkin olaraq bu yüksəkliklərə göz gəzdirir. Onlar müdafiəçilərinə baxıb qürrələnirlər. Yaxşı bilirlər ki, bu yerlər də igid, cəngavər oğulların qətiyyəti hesabına qorunur. Atəşkəsdən üzü bu yana əsgərlərimiz bu dağların keşiyində sayıq dayanıb, bu gün də dayanmaqdadılar. Heç vaxt düşmənə səngərdən keçməyə aman verilməyib. Çoxdanın söhbətidir. Tapqaraqoyunlu kəndindən qarşıdakı yüksələn postlarımız aydın görünürdü. Hər səhər gözünü açan insanlar döyüşçülərimizin sayıq dayandıqlarını, düşmənin açdığı atəşə daim tutarlı cavab verdiklərini xatırlayan Behbud kişi, - "məğrur Azərbaycan əsgərinin cavab atəşindən sonra düşmən uzun müddət susurdu", - deyirdi. Onu yaşadan da, ona ruh verən də Azərbaycan əsgərinin mərdliyi, cəsarəti idi.

...Burada nabələd adamı bir neçə istiqamətdə uzanan dərələr tam fərqli bir məkana apara bilər. Zamanında bu yerlərin müdafiəsində olduğum üçün hər dərə, hər cığır, hər iz mənə doğma gəlir. Hər cığırdakı hər daşa da bələdəm. Gənc həmkarım baş leytenant Ceyhun Cəfərli əvvəl elə zənn etmişdi ki, bu yerlərə ilk dəfədir ayaq basıram...

Qarşımızda ucalan təpədə bir məkana çatırıq. Bu Mübarizi Mübariz eyləyən məkandır (Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov nəzərdə tutulur). Mübarizi xalqa bu təpə, bu dağ, bu dərə tanıtdı. Onun göstərdiyi qəhrəmanlıq bu təpələri, dağları, dərələri aşdı, qəlblərə sığışmadı... Xalq onun şücaətinə dastanlar qoşdu, şəninə şeirlər yazdı, mahnılar bəstələdi. İndi isə qəhrəmanın ruhu burdadı. Böyük bir tabloda bizə dikilmiş əzəmətli baxışlar görürəm. "Salam, Mübariz! Sənsiz sənin görüşünə gəlmişik. Hamı gəldi-gedər oldu bu yerlərdən. Sən qaldın müqəddəs məkanda silahdaşın Fəridlə birgə (Azərbaycan Bayrağı ordenli Fərid Əhmədov). Özün seçdin bu yolu, bu məkanı. Yerin cənnət olsun. Vətəni qorumaq üçün, xalqı yaşatmaq üçün nəsillərə örnək olacaq bir yol seçdin. Açdığın yolla gedənlər yenə də var. Bu günlərdə açdığın yola Çingiz də qədəm qoydu. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovu deyirəm..."

...Bir otağa daxil oluruq. Burada qəhrəmanın bir zamanlar istirahət etdiyi çarpayı var. Qatı açılmayan yataq dəsti olduğu kimi qorunur. Qəhrəmanın şəxsi əşyaları da burada saxlanılır...

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Türkiyənin ölkəmizdəki səfiri ilə görüşüb



*Martın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hər iki ölkənin Silahlı Qüvvələrinin inkişafı istiqamətində həyata keçirilən əməkdaşlığın perspektivləri, regiondakı hərbi-siyasi vəziyyət, bölgə üçün vacib əhəmiyyət kəsb edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Tərəflər Azərbaycan və Türkiyə Silahlı Qüvvələri nümayəndələrinin qarşılıqlı səfərlərinin, həmçinin hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini xüsusi qeyd ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz həlak olub

Martın 11-də Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri tərəfindən mövqelərimizin atəşə tutulması nəticəsində hərbi qulluqçumuz əsgər Abbasov Həsənəli Çingiz oğlu həlak olub.

Müdafiə Nazirliyinin rəhbərliyi mərhumun yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## Düşmənin dayaq məntəqəsinə artilleriya atəşi vurulub

Ermənistan silahlı qüvvələrinin dayaq məntəqəsinə vurulan artilleriya atəşi nəticəsində düşmən 5 nəfərədək itki verib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*14 mart 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən və 60 millimetrlik minaatanlardan da (7 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 120 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Barekamavan, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Cəfərli, Qızılhacılı, Kəmərli, Qaymaqlı, Fərəhli kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə, Çinari, Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə və Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Mərzili, Qaraqaşlı, Şıxlar, Yusifcanlı, Baş Qərvənd, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Veysəlli, Horadiz, Aşağı Seyidəhmədli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi MDB iştirakçı dövlətlərin Silahlı Qüvvələri Qərargah Rəisləri Komitəsinin iclasında iştirak edəcək

*Martın 14-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə yola düşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik N.Sadıkov martın 15-də MDB-nin üzvü olan dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edəcək.

İclasda nümayəndə heyətlərinin rəhbərləri MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparacaqlar.

İclas çərçivəsində "Suriya Ərəb Respublikasında keçirilən döyüş əməliyyatları nəticəsində qazanılmış təcrübələrə əsasən terrorizmə qarşı mübarizənin hərbi aspektləri" mövzusunda konfransın keçirilməsi nəzərdə tutulur.

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında Pakistanın Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti ilə görüş keçirilib



*Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri Akademiyasının rəhbər heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət edib.*

Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev briqada generalı Syed Ahmad Ovais Hayder Zaidi ilə görüşərək hərbi təhsil sahəsində birgə əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndə heyəti hərbi təhsil ocağındakı tədris, maddi-texniki və digər hərbi təyinatlı vasitələrlə yaxından tanış olduqdan sonra onlara akademiya barədə ətraflı brifinq təqdim edilib.

Sonda xatirə fotosu çəkilib.

# Bu ucalıq Mübarizlik zirvəsidir



(Əvvəli 1-ci səhifədə)

Kapitan Elman Həsənov deyir ki, bu gün yüzlərlə Mübariz, Fərid, Çingiz var. "Onların qəlbi Vətən eşqiylə döyünür. Bu yay qarşıda ucalan yaylaqlara getməyə həvəsiyiblər. Əsgərlərimiz qırışığı hələ açılmayan Murovun, Keçəl dağın əvvəlki ovqatını qaytarmaq istəyirlər. O gün uzaqda deyil..."

Leytenant Ayaz Cəfərli şəxsi heyətin döyüş hazırlığına məsul şəxsdir. O deyir ki, döyüş hücum və müdafiədən ibarətdir. "Onların hərbi xidmətinin, demək olar, çox hissəsi müdafiəylə bağlıdır. Bu səbəbdən də düşmənlə bilavasitə təmas şəraitində müdafiənin etibarlı təşkili mütləqdir. Gənc zabit kursant illərində qazandığı bilik və bacarıqları bu gün tabeliyində olanlara sidq ürəklə aşılayır. Əsgərlər də komandirin öyrətdiklərini dərindən mənimsəyərək bacarıqlı döyüşçü kimi formalaşırlar. Etibarlı və davamlı müşahidə qələbənin yarısı deməkdir. Ön xətdə xidmət edən hərbçilər bunu belə izah edirlər: "Müdafiə olunan zaman hücum edən düşməni tez bir zamanda aşkar edərək onu məhv etmək mümkündür."

Ön xətdə xidmət edən komandirlərin başlıca məramı tabeliyində olanlara müdafiənin incəliklərini aşılamaqdır. Bu cür etibarlı müdafiə bizi daha böyük uğurlara aparacaqdır. Adama boy verən dərin səngərlə növbəti üstüörtülü müşahidə postuna tərəf irəliləyirik. Düşmənə açılan atəş sektorunda əsgər pulemyotunu məchul nöqtəyə tuşlayıb. Hədəf məlumdu. Döyüşçü olduqca etibarlı, təhlükəsiz mövqe seçib. Oradan düşməni aram-aram müşahidə edir, güllə atdığı mövqeyini gözdən qoymur. Düşmən xislətindən əl çəkmir, mövqelərimizə sarı bir neçə güllə atır və atəş yarımçıq kəsilir...

Bax, budur, Azərbaycan əsgərinin sayıqlığı, peşəkarlığı! Pulemyotçu əsgər Amil Qasımov az bir zamanda nəyə qadir olduğunu, necə döyüşçü olduğunu fəaliyyəti ilə təsdiq edib. Qaradağ rayonunun Qobustan qəsəbəsindən olan əsgər bir ildən artıqdır hərbi xidmətdədir. Sərrast tuşlayıcı olmaqla yanaşı, həm də intizamlı əsgərdir.

...Səngərdən yenə atəş səsləri gəlir. İşğalın sonu yaxınlaşır. Vətənimi bölən, bağrını yaran o səngərlərin ömrünə az qalıb, çox az qalıb... Ali Baş Komandanın əmriylə Azərbaycan Ordusu işğala son qoyacaq!

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib

*Martın 13-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasının NATO ilə "Planlaşdırma və Analiz Prosesi" (PAP) və "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı" (FTƏP) sənədlərinin Müdafiə Nazirliyinə aid hissəsinin həyata keçirilməsi üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib.*

Tədbirdə müdafiə sahəsində aparılan islahatlar, NATO və tərəfdaş ölkələrlə əməkdaşlıq, PAP və FTƏP proqramları üzrə məqsədlərin və öhdəliklərin yerinə yetirilməsi məsələləri müzakirə olunub.

Görüş iştirakçıları NATO ilə Azərbaycan arasında hərbi təhsil və təlim sahəsində birgə fəaliyyət planını, Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində aparılan fəaliyyətlər və Azərbaycan sülhməramlılarının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfə və digər məsələləri də nəzərdən keçiriblər.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto çavuş Vüsal HƏMİDOVUNDUR**

# Dini radikalizmə qarşı mübarizə günün tələbidir

*Naxçıvan Qarnizonunun Zabitlər Evində "Ordu və din" mövzusunda tədbir keçirilib. Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov tədbiri açıq elan edərək mövzu ətrafında çıxış edib.*

Bildirilib ki, Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə xüsusi önəm verilir və bu istiqamətdə məqsədyönlü iş aparılır. Hər bir komandir, şəxsi heyətlə iş üzrə zabit yaxşı bilir ki, xalqımızın əsrlər boyu yaratdığı və qoruduğu milli-mənəvi dəyərləri mənimsəmədən, əsl vətəndaş, əsl döyüşçü yetişdirmək mümkün deyil.

Belə tədbirlərin hərbi qulluqçuların hazırlığında rolunu qeyd edən polkovnik Mirqiyas Rüstəmov dünyanı narahat edən bir çox dini cərəyanların Azərbaycan Ordusuna sirayət etmədiyini, lakin buna baxmayaraq dini radikalizmə qarşı mübarizə və dini maarifləndirmə tədbirlərinin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıb.




Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin idarə rəisi polkovnik-leytenant Ramin Əhmədov çıxışı zamanı bildirib ki, dini radikalizm bu gün bəşər üçün ən böyük təhlükə mənbəyidir, separatizm və terrorizmə aparan faciəvi yolun başlanğıcıdır. "Heç bir ölkə və xalq dini radikalizmdən sığortalanmayıb. Odur ki, dini radikalizmə qarşı mübarizədə hər bir şəxs, eləcə də hərbi qulluqçular daim ayıq-sayıq olmalıdırlar."

Dini Qurumlarla İş üzrə İdarəsinin nümayəndəsi Bəhruz Gülmalıyev dini radikalizm barədə ətraflı məlumat verərək onun qarşısını almağın yollarından geniş bəhs edib.

**Leytenant Nəriman NƏCƏFOV, foto əsgər Rasim İSMAYILLININDIR**

# "Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir"

Martın 14-də Milli Məclisdə Çin Xalq Respublikasının xarici ölkələrlə Çin Dostluq Cəmiyyətinin sədr müavini Song Jingüunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Çin əlaqələrinin çoxşaxəliliyindən məmnunluq ifadə olunub.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri, Azərbaycan-Çin parlamentlərarası dostluq qrupunun rəhbəri Siyavuş Novruzov bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ticari, iqtisadi, siyasi əlaqələri daha da genişlənib.

Komitə sədri vurğulayıb ki, Azərbaycan-Çin əlaqələrinin dərin tarixi kökləri var. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Çinə rəsmi səfəri, orada keçirdiyi yüksək səviyyəli görüşlər və apardığı danışıqlar müasir dövrdə ölkələrimiz arasında əlaqələrin əsasını qoyub. Prezident İlham Əliyevin Çinə səfərlərini xatırlayan komitə sədri deyib ki, bu səfərlər ikitərəfli münasibətlərin genişlənməsinə xüsusi töhfə verib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan komitə sədri qeyd edib ki, 20 ildən çoxdur Azərbaycan torpaqlarının 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunub, bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin düşüb. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi hələ də Ermənistan tərəfindən icra olunmayıb.

Təhsil əlaqələrindən danışan S.Novruzov vurğulayıb ki, Azərbaycanın bir çox universitetlərində Çin dili tədris olunur. Çindən gələn tələbələr ölkəmizdə, azərbaycanlı tələbələr isə Çinin bir sıra universitetlərində təhsil alırlar.

Sədr müavini Song Jingüu qeyd edib ki, hər iki ölkənin rəhbərlərinin səyləri nəticəsində hazırda dostluq münasibətləri bütün sahələri əhatə edir. Siyasi baxımdan ölkələrimiz arasında inam və etimad mövcuddur.

Qonaq bildirib ki, bu il Çin ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümüdür və Pekin şəhərində bu münasibətlə böyük ziyafət keçiriləcək.

Song Jingüu Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Çin Xalq Respublikasının mövqeyini bir daha təsdiqləyərək vurğulayıb ki, biz problemin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında, beynəlxalq hüquq normalarına uyğun həll edilməsinin tərəfdarıyıq. İnanırıq ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri tezliklə icra olunacaq.

# Ombudsman aparatının nümayəndələri hərbi hissələrə baxış keçiriblər

*Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkilinin birgə təsdiq etdikləri tədbirlər planına əsasən, Ombudsman aparatının nümayəndələri "N" hərbi hissələrinə baxış keçiriblər.*



Ombudsman aparatının hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və Ombudsman aparatının sektor müdiri Vüqar Heydərov hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, onlarla rəftar və hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib, şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

Aparatın əməkdaşları əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, məişət və digər inzibati otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyəti, asudə vaxtın keçirilməsi üçün yaradılan şərait, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



AZƏRBAYCAN ORDUSU

# Dünənin qəhrəmanlığı bu günümüzə örnəkdir

*"N" hərbi hissəsi Silahlı Qüvvələrimizdə şərəfli döyüş yolu ilə fərqlənir. Aprel döyüşlərində də bu hərbi hissənin şəxsi heyəti əsl vətənpərvərlik nümunələri göstərib. Vacib əhəmiyyətli ərazinin işğaldan azad edilməsində fərqlənən hərbi qulluqçuların qəhrəmanlıq yolu bu gün də burada xidmət edən gənclərimizə ən dəyərli örnəkdir. Bu günlərdə qəzetimizin əməkdaşları baş leytenant Ceyhun Cəfərli, leytenant Mahmud Möhbalıyev və foto-müxbir Coşqun Cəfərov hərbi hissədə oldular. Əsgərlərin ürək sözlərini, arzularını, xidmət şəraiti ilə bağlı fikirlərini qələmə alıblar. Onların yazılarını oxucularımıza təqdim edirik.*

**"Azərbaycan Ordusu"**



## Döyüş əmrinə hazıram

Gənclər üçün hərbi xidmətin böyük önəmi var. Hərbi xidmət keçməyin vacibliyini hər bir gənc yaxşı dərk etməlidir. Hər birimiz yaxşı bilməliyik ki, cəmiyyətdə, gələcək həyatımızda hörmət qazanmaq istəyiriksə, mütləq Vətən qarşısında övlad borcunun öhdəsindən layiqincə gəlməliyik. Vətənpərvərlik hisslərimin formalaşmasında, cəmiyyətə yararlı şəxsiyyət kimi yetişməyimdə və s. üstün keyfiyyətlərə yiyələnməyimdə ilyarımlıq əsgəri xidmətim böyük rol oynadı. Hərbi xidmət dövründə də milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda gələcəyin nümunəvi vətəndaşları kimi yetişirik.

Hər gənc kimi mən də bu şərəfli yolu keçdiyim üçün çox sevinirəm. Hərbi xidmət həm də bizlər üçün bir həyat məktəbidir. Bu məktəbdə hər kəs vacib keyfiyyətlərə yiyələnir. Əsgəri xidmətdə fiziki və mənəvi-psixoloji cəhətdən formalaşırıq, həyatın çətinlikləri ilə ayaqlaşmağı öyrənirik. Bu xidmət Vətənə bağlılıq, vətənpərvərlik hissləri aşılamaqla yanaşı, hər kəsdə mətinlik, dözümlülük, qorxmazlıq formalaşdırır. Hərbi silahlardan, texnikalardan istifadə etməyi bacaran döyüşçü kimi yetişirik.

Əsgəri xidmətimdə ən yaddaqalan günlərimdən də söz açmaq istəyirəm. Hərbi andı qəbul etdiyim günün qürurunu, həyəcanını heç vaxt unutmaram. Bir əlim əsgər yoldaşımın çiynində, bir əlim isə silahımda Vətənə sədaqət andi içdim o gün. Döyüş növbəsinə ilk çıxdığım gün də belə günlərdəndir. Post başçısı son təlimatlarını verdi. Çox həyəcanlı idim. Çünki mənə ən məsuliyyətli vəzifə tapşırılmışdı. Əsgər yoldaşımdan növbətçiliyi təhvil alaraq, düşmən qarşısında dayandım. O an düşüncələrimlə baş-başa qaldım: "Gözüm nişangahda, barmağım tətikdə düşmən qarşısında dayanmışam, valideynlərim məni belə görsəydilər, qürur duyardılar."

Əsgəri xidmət, həmçinin əsl dostluğun təməlini qoyur. Bu gün sənin silahdaşın olan bir əsgər sabah həyat dostun olur. Mən komandirlərimdən, əsgər yoldaşlarımdan ayrılacağım üçün kədərlənirəm. Söz verirəm ki, döyüş əmri verilərsə, tərəddüd keçirmədən onlarla çiyin-çiyinə döyüşə atılacam.

**Əsgər
Ceyhun ŞİRƏLİZADƏ**



## Silahını təmiz saxla

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabitlərdən Nahid Rzayevin haqqında danışdığı əsgər Nəbi Abbasovla tanış oluruq. Döyüş növbətçiliyini təhvil verən əsgər istirahət etmədən öncə silaha qulluq etməyin vacib olduğunu vurğulayır:

- Silah bizim döyüş yoldaşımız, torpaqlarımızın qoruyucusudur. 15 aydır ki, doğulub boya-başa çatdığım Gədəbəydən hərbi xidmətə yollanmışam. Təlimlər zamanı hədəfi dəqiq nişan aldığım üçün baş atıcı vəzifəsinə yüksəlmişəm. Xidmətim ərzində komandirlərimdən çox şey öyrənmişəm.

Ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini dəqiqliklə bilən əsgərin avtomatın sökülüb yığılma normativlərini dəqiqliklə yerinə yetirdiyini öyrənirik.

- Bildiyimiz kimi, silah müəyyən olunmuş normativlərlə sökülüb yığılır, - deyən kapitan Nahid Rzayev əsgər Abbasovun döyüş vəzifəsinin öhdəsindən lazımınca gəldiyini, hər bir əsgərin öz silahına qulluq etdiyini bildirir.

Təcrübəli əsgər avtomatın digər xüsusiyyətlərini də izah etməyə çalışır. O deyir ki, avtomat atəş zamanı əmələ gələn barıt qazlarının enerjisinin istifadəsinə əsaslanır. Atəş zamanı barıt qazlarının bir hissəsi güllənin ardınca hərəkət edərək, lülə divarındakı dəlikdən qaz borucuğuna keçir, təzyiq yaradır və çaxmaq çərçivəsini qaz porşeni ilə birlikdə geriyə itələyir. Çaxmaq çərçivəsi geri çəkilərkən sıxılır və atəş açılır. Bacarıqlı əsgərə görə, bütün bu proseslərin vaxtında və düzgün yerinə yetirilməsi üçün silaha texniki qulluq göstərilməlidir.

## “Əsgərin sağlamlığını qorumaq ən şərəfli vəzifədir”



Hərbi tibb məntəqəsinə baş çəkib həkimlərlə həmsöhbət olur, əsgərlərimizin səhhəti ilə maraqlanırıq. Hər sahədə olduğu kimi, bu sahədə də islahatlar aparılıb, maddi-texniki təminat xeyli yaxşılaşıb. Ordu dövlətin bütövlüyünü, müstəqilliyini qoruduğu kimi, tibb sahəsi də insan həyatının qoruyucusudur. Hərbi tibb sahəsində xidmət edən ağxalatlılar Vətəni qoruyan hərbi qulluqçuların sağlamlığının keşiyində dayanırlar.

Döyüş postlarından birində xidmət edən qumbaraatan əsgər Kənan Qurbanov bir neçə gün əvvəl kəskin respirator xəstəliyi ilə tibb məntəqəsinə müraciət etdiyini və artıq sağalmaq üzrə olduğunu bildirir.

- Həqiqətən, təcrübəli və savadlı həkimlərimiz var. Tibb məntəqəsinə müraciət edən əsgərlər onların sayəsində tezliklə sağlamlıqlarına qovuşub öz xidmət yerlərinə qayıdırlar. Bura gələndə həkimlərimiz qısa vaxtda sağalmağım üçün səy göstərdilər.

Həkimlik şərəfli, çətin və məsuliyyətli peşələrdən biridir. Orduda fəaliyyət göstərən həkimlər isə ikiqat məsuliyyət hiss edirlər. Söhbətimiz zamanı xəstələrlə qayğıkeşliklə davranan həkimlərimizin səmimiliyindən razı qalırıq.

Artıq nahar vaxtıdır. Əsgərlərə verilən yeməyin keyfiyyətini yoxlamaq üçün həkim yeməkxanaya yollanır. Əsgərlərimizin qida rasionu ilə maraqlanmaq üçün onunla gedirik..



## Düşməndən qat-qat güclüyük

Əsgər yataqxanasında bizi qarşılayan bölük növbətçisi günün nizam qaydasına uyğun olaraq şəxsi heyətin asudə vaxtda olduğunu deyir. Leytenant Toğrul Bəylərovla salamlaşırıq. O, bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsindədir.

- Əsgərlərin asudə vaxtları necə keçir?

- Əsgərlərə asudə vaxtlarını səmərəli keçirmək üçün hər cür şərait yaradılıb. Onlar hazırda stolüstü (şahmat, domino) idman oyunları ilə məşğul olur, "Azərbaycan Ordusu" qəzetini və hərbi jurnalları oxuyurlar. Həmçinin vətənpərvərlik və tarixi mövzularda çəkilmiş sənədli filmləri izləyirlər.

Əsgərlər Valeh Qəhrəmanov və Sabir Abdulzadə arasında maraqlı şahmat oyunu gedir. Hər ikisinə uğurlar arzulayıb, digər əsgərlərlə salamlaşırıq.

Əsgər Ülvi Hacıyev "Azərbaycan Ordusu" qəzetindən "XX əsrin faciəsi - Xocalı soyqırımı" adlı yazını oxuyur. Xocalıda öldürülən soydaşlarımız, vəhşiliklə qətlə yetirilən körpələr onun da gözlərində həm kədər, həm də bu vəhşiliyi törədənlərə qəzəb hissi oyadır.

- Ana-bacılarımızı, qocalarımızı, körpələrimizi vəhşiliklə qətlə yetirən düşməndən qisas almağı Allah bizlərə nəsib etsin, - Ülvi deyir. - Hər an döyüş əmri gözləyirik ki, ata-baba torpaqlarımızı düşmən işğalından azad edək. Hər kəs bilsin ki, erməni əsgərlərindən qat-qat güclüyük. Vətənimizə, ordumuza ürəkdən bağlıyıq. Vətən uğrunda canımızı qurban verməyə hazırıq.

Əsgər Göyüş Vəliyev isə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş postlarında növbə çəkən əsgərlərlə görüşündən bəhs edən məqaləni böyük maraqla oxuyur.

- Cənab nazirimizin yüksək diqqət və qayğısı, xidmət yerlərimizə baş çəkməsi bizi çox sevindirir. Vətən sevgimizi, vətənpərvərlik hissimizi daha da artırır. Bu cür qayğı döyüş ruhumuzu artırır, - əsgər Vəliyev deyir.

Əsgər Elvin Allahverdiyev də "Hərbi Bilik" jurnalından silahlar, hərbi texnikalar haqqında yazıları oxuyur. "Asudə vaxtlarımızda, qəzet və jurnallardan həm hərbi biliklərimizi artırır, həm də ölkəmizdə və ölkədən xaricdə baş verən hadisələrdən, maraqlı xəbərlərdən məlumatlanırıq. Milli Qəhrəmanlarımızdan, şəhidlərimizdən, tariximizdən bəhs edən sənədli filmləri də həvəslə izləyirik".

**(Ardı 5-ci səhifədə)**

# Dünənin qəhrəmanlığı bu günümüzə örnəkdir

## Fiziki hazırlıq döyüş qabiliyyətinə təminatdır



(Əvvəli 4-cü səhifədə)

Fiziki hazırlıq əsgərlərin həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığının möhkəmləndirilməsinə istiqamətlənmiş fəaliyyət prosesidir. Əsgərlər idmanla, bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olarlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də təminatdır. İdmanla məşğul olan hərbi qulluqçu daha möhkəm, dözümlü olur. Yüksək fiziki göstəricilərə malik əsgərlər döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirirlər. Buna görə də əsgərlərin bacarıqlı döyüşçü kimi yetişməsi prosesində idmanla məşğul olmaları mühüm yer tutur. Dövlətimizin qayğısı nəticəsində bütün hərbi hissələrdə müasir idman avadanlıqları ilə təchiz olunmuş şəhərciklər fəaliyyət göstərir. Fiziki hazırlığın mahiyyətini yaxşı başa düşən əsgərlər də yüksək həvəslə idmanla məşğul olurlar. Hər bir əsgər yaxşı bilir ki, döyüşün bir növü də əlbəyaxa döyüşdür ki, bu döyüş yüksək çeviklik və fiziki hazırlıq tələb edir. Bunun üçün də əsgərlər fiziki hazırlıq saatlarında idmanla ciddi məşğul olurlar.

Əsgər Nicat Soltanov 9 aydır ki, xidmət edir. Azərbaycan Memarlıq İnşaat Universitetinin məzunudur. Hərbi xidmətə Sumqayıt şəhərindən çağırılıb, uşaqlıqdan yunan-Roma güləşi ilə məşğul olub. Respublikada keçirilən turnirlərdə müxtəlif titullara yiyələnib. Nicat turnikdə, paralel qollarda, sonra isə digər idman qurğularında məşqini davam etdirir. Yorulmadan, həvəslə idman edən əsgərimizi heyranlıqla izləyirik. Məşqini yekunlaşdıran əsgərin idmana olan istəyinin haradan yarandığı ilə maraqlanırıq.

- Mənim idmana və məhz güləş növünə olan marağım, güləş üzrə Azərbaycanın birinci Olimpiya çempionu Namiq Abdullayevin adı ilə bağlıdır, - deyir. - O, çempion olanda 5 yaşım vardı. Onun yarışlarını həvəslə izlədikcə böyüyüb çempion olacağımı xəyal edirdim. Elə o yaşlarımdan idmanla məşğul olmağa başladım. Fiziki hazırlığım hərbi xidmətim üçün də çox vacibdir. Regionun ən güclü ordusunun əsgəriyik. Ordumuzun adına layiq döyüşçülər olmalıyıq. Fiziki hazırlığımız daim yüksək olmalıdır ki, döyüş meydanında düşmənə göz açdırmayaq.

## Ürəyiniz rahat olsun, analar!



Əsgər yeməkxanasındayıq. Müasir standartlara cavab verən yeməkxananın bir neçə il əvvəl əsgərlərin istifadəsinə verildiyini öyrənirik. Çox keçmədən yeməkxanaya gələn Vətən keşikçilərinin torpağı titrədən addımların səsini, göylərə ucalan mahnı sədalarını eşidirik.

Yeməkxana növbətçisi gizir Ruslan Məmmədov ərzaq xidmətinə cavabdeh olan zabit Cavid Məhərrəmova yeməklərin tam hazır olması barədə məlumat verir. Nizamlı şəkildə əsgərlər qadın aşpazlara yaxınlaşır və gündəlik normalarını götürərək öz yerlərini tuturlar.

Zabit Cavid Məhərrəmov bildirir ki, xeyli müddətdir hərbi hissələrdə milli yeməklər əsgərlərin qida rasionuna daxil edilib. "Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə yeməklərin hazırlanması prosesinə mülki şəxslər, qadınlar cəlb olunublar. Bu da yeməklərin daha keyfiyyətli hazırlanması deməkdir. Yəqin hamı razılaşar ki, əsgərin bişirdiyi yeməklə bir qadının, bir ananın hazırladığı yeməyin keyfiyyəti arasında fərq böyükdür."

Bir masa arxasında əyləşən 4 əsgərin söhbətinin şahidi oluram. Əsgərlərdən biri hər gün yeməklərin dadlı olmasından söz açır. Digəri isə düyü plovu və qiyməli ətin ən sevdiyi yemək olduğunu bildirir. Söhbətə başlayan birinci əsgər hərbi xidmətdən öncə anasına dediklərini xatırlayır. "Anama bişirdiyi dadlı yeməkləri üçün darıxacağımı deyirdim. Nə yalan deyim, onun qədər dadlı yemək bişirənin olacağını düşünmürdüm. Amma burada bizi öz övladları bilən analar hamımızın damaq dadını düşünür, bütün yeməkləri sevgi, istəklə bişirirlər."

Əsgərlərdən Ramal Məmmədov, İsmayıl Əliyev, Ruslan Serdyukov və İsmayıl Nəsibov da yeməklərdən razılıq edirlər. 15 ayın əsgəri İsmayıl Nəsibov mövsümə uyğun verilən yeməklərdən, təcrübəli aşpaz qadınlardan söz açaraq deyir ki, bu gün biz yeməkxana və digər təsərrüfat işlərindən tam azad olmuşuq. "Bir vəzifəmiz, bir məqsədimiz var. Təlimlərdə fəal iştirak edərək döyüşə hazır olmaq, torpaqlarımızı işğaldan azad etmək!"

Əsgər İsmayıl Əliyev isə öz anasının timsalında bütün əsgər analarına xitabən deyir ki, övladlarınızdan nigaran qalmayın, burada ağ xalatlı analar da sizin kimi qayğımıza qalırlar. "Ana müqəddəs varlıqdır. Övladı dünyaya gətirən, onu Vətən üçün yetişdirən də anadır. Gözünün ağı-qarası övladını Vətəni qorumağa göndərən hər bir əsgər anasının iki arzusu vardır: övladının sağ-salamat geri dönməsi və illərcə qayğısına qaldığı balasının məişət şəraitinin yaxşı olması, düzgün qidalanması. Qəzetimiz vasitəsiylə demək istəyirəm ki, məişətimiz yüksək səviyyədədir, yeməklərimiz isə analarımızın hazırladığından fərqlənmir. Ürəyin rahat olsun anam, ürəyiniz rahat olsun, analar!.."



## Tək bir arzum...

Hazırda döyüş növbətçiliyi apardığım mövqedən Cəbrayıl rayonunun kəndləri görünür. Artıq təbiət oyanır, hər tərəf yaşıllığa bürünür. İçimdə bir istək, bir arzu var. Qarabağa, Laçına, Kəlbəcərə, işğalda olan digər ərazilərimizə ayaq basmaq, oradakı sərin bulaqlardan su içmək, gözəl təbiətin qoynunda istirahət etmək. Bu tək mənim yox, hər bir əsgərin ən böyük arzusudur. Bunun üçün də Ali Baş Komandanın əmrini gözləyirik.

**Əsgər**
**Zöhrab GƏRAYEV**

## Şəhid olsam, ağlama!



Məktubumu "N" hərbi hissənin döyüş postundan yazıram. Bu gün bölməmizə "Azərbaycan Ordusu" qəzetinin müxbirləri gəliblər. Onların hər gəlişi bizə xoş hisslər aşılayır. Yazdığım məktubun qəzetdə dərc olunacağına söz verdikləri üçün hər birinə təşəkkür edirəm.

Salam, ata. Necəsən? İşlərin necə gedir? Mənim xidmətim uğurla davam edir. Tuşlayıcı ixtisası üzrə xidmət edirəm. Ata, yadındadır, məni xidmətə yola salarkən "Vətənimizə layiqli əsgər ol, şərəfli xidmət et, komandirlərinin sözündən çıxma" deyərək xeyir-dua vermişdin. Sənə xidmətimdən danışmaq istəyirəm. Gənc əsgər hazırlığı bitdikdən sonra tuşlayıcı əsgər kimi döyüş postunda xidmətə yollandım. Bura gəldiyim ilk gündən çox qürurluyam. Mərd Vətən oğulları ilə bir sırada, ön xətdə xidmət etməkdən şərəf duyuram. Xidmətimin ilk günlərindən, sənin dediyin kimi, nümunəvi əsgər olmağı özümə söz verdim. Artıq 15 aydır ki, xidmət edirəm. Bu aylar mənə Vətənə bağlılıq, düşmənə nifrət hissləri aşılayıb. Dözümlü, nizam-intizamlı olmağı öyrədib. Burada həm döyüşçü kimi, həm də cəmiyyətə yararlı vətəndaş kimi yetişirəm.

Ana, salam. Necəsən? Mənim üçün darıxdığını bilirəm. Gözün yolda, qulağın səsdə yolumu gözləyirsən. Gözünə yuxu getmir, məni düşünərək, dualar edirsən. Gecələr gözünü rahat yum, ana, biz burada komandirlərimiz tərəfindən əsl valideyn qayğısı görürük. Yeməyimiz qaydasındadır, isti yataq yerimiz, bir sözlə, hər şəraitimiz var. Doğma Vətənimizi, öz anamızı, atamızı, bacı-qardaşımızı müdafiə edirik. İşğal altında olan torpaqlarımızı düşməndən azad etmək üçün döyüş əmri gözləyirik. Əziz anam, bu yolda öldürmək də var, şəhid olmaq da. Əgər şəhidlik qismətim olsa, ağlama! Hər zaman başını uca tutaraq "Təki Vətən sağ olsun de!" Şəhid anası kimi oğlunla fəxr elə! Ana, özündən muğayat ol.

Ata, burada çoxlu dostlarım da var. Əsgərlik mənə sadiq dostlar qazandırıb. Əsgər yoldaşlarım Kənan Şabanov, Nicat Musayev, Göyüş Vəliyev belə dostlarımdandır. Məncə əsgərlik dostluğu ən möhkəm dostluqdur. Çünki döyüş meydanına onunla birgə atılırsan. Onunla çiyin-çiyinə döyüşürsən. Canını ona əmanət edirsən. Düşmən gülləsinə tuş gəldikdə, səni xilas etmək üçün ilk növbədə əsgər yoldaşın canını təhlükəyə atır. Bəlkə də onun qollarında şəhidlik məqamına ucalırsan.

Əziz valideynlərim, bu döyüş postu evimiz, ailəmizdir. Biz bu səngərlərdə Vətəni qorumaq amalı ilə xidmət aparırıq. Hər birimiz səngərdə xidmət etməkdən qürur duyuruq. Vətənin keşiyində mərdliklə dayanır, düşməndən qorxmuruq. Qarabağ torpaqlarını işğaldan azad edib, sizlərə qələbə məktublarını yazmaq arzusu ilə sağollaşıram. Allah amanında qalın!

**Əsgər**
**İsmayıl NƏSİBOV**

*Ordu və cəmiyyət*

# “Cocuq Mərcanlıya qayıdış Şuşaya, Qarabağa qayıdışın başlanğıcıdır”



*Rubrikamızın qonağı Şuşa rayon İcra Hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması idarə heyətinin sədri - icmanın rəhbəri, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Bayram Səfərovdur. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə 17 mart 2016-cı ildə "Şöhrət" ordeni ilə təltif edilib.*

***- Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Zaqafqaziyanın konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimləri yetirən, Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Artıq bu işğaldan 25 il keçir. Hər bir azərbaycanlı Şuşa, Qarabağ həsrətilə yaşayır. Bayram müəllim, ən əvvəl Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Azərbaycanın qətiyyətli mövqeyindən və atılan addımlardan danışmağınızı xahiş edirəm.***

- Hələ Sovet dönəmində Şuşanı abidələr şəhəri adlandıran ümummilli liderimiz Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirirdi ki, Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur. Ulu Öndər deyirdi ki, Şuşa həqiqətən bir şəhər kimi, eyni zamanda vahid bir muzey - Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir. Bu gün bu muzey erməni vandallarının tapdağı altındadır. Biz bilirik ki, xalqımızın mədəni sərvətləri olan abidələrimizin dağıdılması və talan edilməsi "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il konvensiyalarına ziddir.

Möhtərəm Prezident İlham Əliyevin xüsusi həssaslıqla yanaşdığı ən mühüm məsələ ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Doğma ocaqlarından didərgin düşmüş məcburi köçkün soydaşlarımızın bütün qayğıları, problemləri Azərbaycan dövlətinin və Prezident cənab İlham Əliyevin gündəlik probleminə çevrilib. Onun Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinə dair mövqeyi qəti və dəyişməzdir. Dövlətimizin başçısı dünyanın ən yüksək kürsülərindən dəfələrlə bəyan edib ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində həll olunmalıdır.

Azərbaycan diplomatiyası bu illər ərzində öz fəaliyyətini daha da gücləndirərək BMT, ATƏT, Avropa Şurası, NATO, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyünü müdafiə edən, Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr, qərarlar qəbul edilməsinə nail olub. Dövlətimizin başçısı iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkənin mövqeyini və siyasi xəttini qətiyyətlə ifadə edərək bildirir ki, Dağlıq Qarabağın azərbaycanlı əhalisi ora, o cümlədən, Şuşaya qayıtdıqdan sonra status məsələsi müzakirə oluna bilər. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır.

***- Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında 2017-ci il 24 yanvar tarixli sərəncamı xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Bayram müəllim, bir şuşalı kimi, qarabağlı kimi bu sərəncamın doğurduğu sevinc hissini necə ifadə edərdiniz?***

- Tam əminliklə deyə bilərəm ki, Prezidentin məlum sərəncamı Böyük Qayıdışa bir işarədir. Bu sərəncam təkcə cəbrayıllıların deyil, bütün Azərbaycan xalqının ürəyindən xəbər verdi. Cocuq Mərcanlıya qayıdış, Şuşaya, Qarabağa qayıdışın başlanğıcıdır.

***- Şuşanı tez-tez xatırlayırsınız?***

- Bu 25 il ərzində o gün olmaz ki, mən Şuşanı xatırlamayım. Hər günüm Şuşa həsrətində keçir. Hər gün əzizlərimin məzarını ziyarət etmək istəyi ilə yaşayıram. Demək olar ki, xəyallar hər gün məni Şuşanın qədim küçələrinə, dalanlarına çəkib aparır. Şuşanın hər qayasına, daşına bağlıyam.

***- Tarixdən bəllidir ki, Şuşa qalası əsası qoyulduğu gündən üç dəfə erməni daşnaklarının hücumlarına sinə gərib, qanlı döyüşlərin şahidi olub. Şuşa şəhəri 1905-1907-ci, 1918-1920-ci illərdə erməni vandalları tərəfindən yandırılıb və dağıdılıb. Ona görə də 1988-1992-ci illərdə Şuşanın başı üzərini qara buludlar alanda bütün Azərbaycan xalqı bu qədim tarixi diyarda baş verənlərdən narahat idi...***

- Çünki Şuşa təkcə şuşalıların Vətəni deyil, xalqını, torpağını sevən bütün dünya azərbaycanlılarının Vətənidir. Hər daşı, hər qarış torpağı xalqımızın həyatında baş vermiş bir çox tarixi hadisələrin şahidi olan, təbiətin bəxş etdiyi canlı bir muzeyi xatırladan bu şəhər görənləri valeh edərdi. Şuşanın işğalı həm də bütün xalqımızın mənəviyyatına vurulmuş ağır bir zərbə oldu. 1988-1992-ci illərdə Dağlıq Qarabağın Azərbaycan kəndlərinin təminatı mənə həvalə olunmuşdu. O zaman Şuşa rayon İstehlak Cəmiyyəti idarə heyətinin sədri vəzifəsində çalışırdım. Mənə verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə çalışırdım. Tankla, BTR-lə, vertalyotla ərzaqları əhaliyə çatdırırdıq. Həmin vaxtlarda yollar çox təhlükəli olurdu. Erməni silahlı dəstələri maşınları atəşə tutur, yolları kəsirdilər. O günlər çox ağır günlər idi... Hətta Dağlıq Qarabağa yaxın olan rayonlarımızın - Laçının, Kəlbəcərin, Füzulinin bəzi kəndlərinin ərzaqla təmin olunmasında əlimizdən gələn köməyi əsirgəmirdik. Şuşa uğrunda sonadək döyüşlər getdi. Qarabağımızın tacı olan qədim Şuşa şəhəri üçüncü dəfə 8 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Torpaqlarımızın azadlığı uğrunda rayonumuzdan 195 nəfər şəhid, 165 nəfər əlil olub. 58 nəfər isə itkin düşüb. 4 nəfər Milli Qəhrəman adına layiq görülüb.

***- Şuşadan, Dağlıq Qarabağdan köçkün düşən insanlara dövlət qayğısı barədə nə demək istərdiz?***

- Dağlıq Qarabağın bütün azərbaycanlı əhalisi də başqa soydaşlarımız kimi yüksək dövlət qayğısı ilə əhatə olunub. Hazırda Şuşa rayon İcra Hakimiyyətinin yerləşdiyi bina möhtərəm Prezidentimiz tərəfindən Dağlıq Qarabağın əhalisinə qərargah kimi verilib. Bu gün məcburi köçkün kimi respublikamızın 60 şəhər və rayonunda məskunlaşmış şuşalıların sayı 33 mindir. 1992-ci ildə isə 22 min olub. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin sayı isə 85-90 mindir. 1990-cı ildə təxminən 50 min olub. Bu onu göstərir ki, əhalinin artımı yüksəkdir. 2007-ci il mayın 4-də Sabunçu rayonunun Ramana qəsəbəsində "Zuğulba" sanatoriyasında müvəqqəti məskunlaşmış 450 şuşalı məcburi köçkün ailəsi üçün yeni qəsəbə salınıb. Köçkün əhali üçün həmin qəsəbədə orta məktəb, musiqi məktəbi, tibb məntəqəsi, poçt, inzibati bina tikilib. İcma rəhbəri kimi deyə bilərəm ki, əhalimizin tək arzusu Şuşaya, Dağlıq Qarabağa qayıtmaqdır. Azərbaycan bütün azərbaycanlıların Vətənidir. Lakin hər bir insan doğulub boya-başa çatdığı torpağa, elə-obaya can atır. Ana Vətən oradan başlayır. Biz əminik ki, Şuşamıza, Qarabağımıza qayıdıb öz ata-baba torpaqlarımızda yenidən qurub yaradacağıq. Laçın, Kəlbəcər, Qubadlı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan Azərbaycanımızın cənnətməkan əraziləridir. O yerləri necə unutmaq olar? Heç bir vaxt...

Bu gün bizim rayonda hərbçi peşəsinə yiyələnmək istəyən bilikli və fiziki hazırlıqlı gənclərin sayı çoxdur. Onlar Vətənin müdafiəsi və torpaqlarımızın azadlığı naminə hərbçi peşəsinə daha çox üstünlük verirlər. Baxın, fəxr ediləsidir, belə vətənpərvər nəsil yetişir.

***- Doğma Azərbaycanımızın füsunkar təbiətli, mədəniyyətimizin beşiyi Şuşa şəhəri tarixin ağır işğal səhifələrini yaşayır. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva bildirib: "Nə qədər ki, Şuşa erməni qoşunlarının işğalı altındadır, hər birimiz şuşalıyıq."***

- Doğrudan da, belədir. Bu o deməkdir ki, milli-mənəvi dəyərlərimizi qoruyub saxlamalı, tariximizi yaşatmalıyıq. Şuşanın, Qarabağın adət və ənənələri xalqımız tərəfindən yaşadılır. 2013-cü il mayın 9-da Macarıstanın Döndöş şəhərinin Şuşa şəhəri ilə qardaşlaşması haqqında birgə Bəyannamə imzalanması buna əyani sübutdur.

***- Ötən ilin aprelində ordumuzun keçirdiyi əks-həmlə əməliyyatlarının əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- Aprel döyüşləri gedən vaxtda bütün xalq ayağa qalxıb səfərbər olundu və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında bir yumruq tək birləşdi. Həmin ərəfədə 50-yə yaxın yetkinlik yaşına çatmayan gənc döyüşə getmək üçün mənə müraciət etmişdi. Bu o deməkdir ki, gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə alır və torpaqlarımızın düşmən işğalında olması ilə heç bir zaman barışmayacaq. Onlar torpaqlarımızın azadlığı uğrunda döyüşlərə getməyə hər an hazır idilər. Aprel döyüşləri gedən zaman respublikamızın şəhər və rayonlarından da yüzlərlə, minlərlə gənc, o cümlədən Qarabağ müharibəsi veteranları cəbhəyə getmək üçün lazımi qurumlara müraciət etmişdi.

Bu gün Azərbaycan Prezidentinin orduya diqqət və qayğısı göz önündədir. Ali Baş Komandan cənab İlham Əliyevin tapşırıq və göstərişləri orduda Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən yüksək səviyyədə həyata keçirilir. Azərbaycan Ordusu dünya standartlarına uyğun tam şəkildə formalaşmış müasir və hazırlıqlı ordudur. Aprel döyüşləri bir daha göstərdi ki, ordumuz düşmən işğalında olan torpaqlarımızı azad etməyə qadirdir. Aparılan sülh danışıqları nəticəsiz qalarsa, o zaman Azərbaycan əsgəri öz sözünü deyəcək. Necə ki, Azərbaycan əsgəri aprel döyüşlərində "məğlubedilməz" Ermənistan ordusunun mifini bir andaca darmadağın etdi. Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılmalıdır.

***- Bayram müəllim, söhbətimizi ənənəvi sualla bitirmək istəyirəm: ordumuzun əsgər və zabitlərinə arzu və istəkləriniz.***

- Qarşıdan xalqımızın ən əziz bayramı olan Novruz gəlir. Bu bayram münasibətilə Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini təbrik edir, onlara cansağlığı, müqəddəs vəzifələrində uğurlar arzulayıram. O gün olsun ki, Şuşada, Cıdır düzündə... Novruz tonqalları çatılsın, birlikdə Böyük Qələbəmizi qeyd edək.

***- Maraqlı müsahibəyə görə çox sağ olun.***

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Milli qəhrəmanlarımız*

# Milli Qəhrəman Çingiz Qurbanovun xatirəsi Şahdağ zirvəsində əbədiləşdirilib

*Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsi Böyük Qafqazın ən yüksək dağ zirvələrindən biri olan Şahdağda əbədiləşdirilib.*

AZƏRTAC xəbər verir ki, dəniz səviyyəsindən 4242 metr yüksəklikdə yerləşən zirvəyə yürüş "Everest" idman klubunun təşəbbüsü ilə reallaşıb. Beş nəfərlik alpinist qrupunun Şahdağa yürüşü martın 8-dən başlayıb və üç gün davam edib. Martın 10-da zirvəyə çatan alpinistlər Milli Qəhrəman Çingiz Qurbanovun adı yazılan xatirə lövhəsini Şahdağ yüksəkliyinə bərkidiblər.




"Everest" idman klubunun direktoru Rusif Bağırov yürüşün Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsini yaşatmaq, eyni zamanda, gənclərin dağçılıq ekstremal idman növlərinə marağını artırmaq məqsədilə həyata keçirildiyini bildirib.

Azərbaycan Ordusunun əsgəri Çingiz Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub.

Fevralın 7-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi barədə Sərəncam imzalayıb.

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş turnir

*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Səfərov Cəlil Əziz oğlunun xatirəsinə həsr olunmuş mini futbol turniri başlandı. Polkovnik Rüfət Əmirov yarış iştirakçıları ilə salamlaşdı və onlara uğurlar arzuladı.*




Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək qəhrəman haqqında mərasim iştirakçılarına məlumat verdi. O dedi:

- Azərbaycanın Milli Qəhrəmanı Cəlil Səfərov 28 yanvar 1962-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Lejbəddin kəndində dünyaya göz açmışdı. Onun yeddi yaşı olanda ailəsi Sumqayıt şəhərinə köçmüşdü. Hərbi peşəyə olan maraq və istək onu C.Naxçıvanski adına Hərbi Liseyə gətirmişdi. 1980-ci ildə Vladiqafqaz Hərbi Raket-Zenit Komandirləri Məktəbinə daxil olmuşdur. 1984-cü ildə leytenant rütbəsi ilə Qazaxıstanda yerləşən hərbi hissələrdə xidmətə başlamışdı. O, 8 il burada xidmət etdikdən sonra Azərbaycana qayıdaraq yenicə yaranmağa başlayan Müdafiə Nazirliyinin Əməliyyat İdarəsində baş zabit vəzifəsinə təyin edilmişdi.

C.Səfərov bir müddətdən sonra zabitlər qrupu ilə birlikdə Dağlıq Qarabağa ezam olunmuşdu. Ezamiyyət müddəti bitsə də, Cəlil döyüş bölgəsində qalmış və hissədə xidmət etməyi daha üstün tutmuşdu. O, Şuşada erməni yaraqlılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə döyüşmüşdü.

Təcrübəli zabit Cəlil Səfərov 15 may 1992-ci ildə Şuşa rayonunun Turşsu və Zarıslı istiqamətində gedən ağır döyüşlərdə onlarla erməni yaraqlısını məhv edərək, qəhrəmancasına həlak olub. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Ailəli idi, iki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 nömrəli fərmanı ilə kapitan Səfərov Cəlil Əziz oğluna döyüşlərdə göstərdiyi igidliyə və şücaətə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Sumqayıt şəhərində bir vaxtlar özünün təhsil aldığı 10 nömrəli orta məktəb onun adını daşıyır. Gürcüstan Respublikası Marneuli rayonunun Lejbəddin kəndində abidəsi ucaldılıb.

Hərbi liseyin rəisi polkovnik Rüfət Əmirov çıxış edərək qəhrəmanla bağlı xatirələrindən söz açdı. "Cəlil Əziziov çox cəsur zabit idi. 1992-ci ilin mayında Laçın bölgəsinə birlikdə ezam olunmuşduq. Şuşanın işğalından sonra burada gərgin vəziyyət yaranmışdı. Bir neçə gün bölgədə olduq. Mövcud qüvvələri səfərbər edərək ermənilərin hücumlarının qarşısını aldıq. Artıq ezamiyyət müddətimiz başa çatmışdı, geri qayıtmalıydıq. Kapitan Cəlil Səfərov məndən xahiş etdi ki, onun bir müddət bölgədə qalıb vuruşmağına icazə verim. Mən başqa istiqamətə yollandım. Bir neçə gündən sonra onun qəhrəmancasına şəhid olduğunu eşitdim. Biz belə cəsur zabitlərimizlə fəxr edib öyünürük."



Birincilikdə iştirak edən qonaqlar - "Neftçi" futbol klubunun veteranı Oktay Abdullayev, "Spartak" idman cəmiyyətinin sədri Nadir Əliyev, beynəlxalq dərəcəli hakim Asim Xuduyev, Həvəskarlar Futbol Federasiyasının baş katibi, beynəlxalq dərəcəli hakim Füzuli Nəcəfov və başqaları tədbir iştirakçılarına təqdim olundu.

Birinciliyin başlanmasını bildirən rəmzi topu "Neftçi" futbol komandasının veteranı Oktay Abdullayev vurdu.

C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev bizimlə söhbətində bildirdi ki, bölüklər arasında keçirilən yarışda 9 komanda iştirak edir. Birincilik martın 20-dək davam edəcək. Sonda qaliblər mükafatlandırılacaq.

İlk olaraq 4-cü və 7-ci bölüyün komandaları üz-üzə gəldi. Yarışı respublika dərəcəli hakim Elşən Şıxıyev idarə edirdi.

Gərgin keçən yarışda 7-ci bölüyün kursantları daha fəal oynayaraq ilk qələbəyə imza atdılar. Onlar rəqib komandanın qapısından 3 cavabsız top keçirdilər. İlk oyun göstərdi ki, yarış gərgin mübarizə şəraitində keçəcək.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Xəbərlər: hadisələr, faktlar

## Yaponiya ən böyük döyüş gəmisini Cənubi Çin dənizinə göndərməyi planlaşdırır



Yaponiya may ayında ən böyük döyüş gəmisini 3 ay müddətində Cənubi Çin dənizinə göndərməyi planlaşdırır.

Bu, regionda İkinci Dünya müharibəsindən sonra hərbi dəniz qüvvələrinin ən böyük şousu olacaq.

Qeyd edək ki, Yaponiya Şərqi Çin dənizində Çin ilə aralarında olan gərginliyə görə dəfələrlə belə addımlar atıb.

## İraq ordusu Mosulda daha bir məhəlləni İŞİD-dən geri alıb



İraq ordusu Mosulun qərbində yerləşən "Neft məhəlləsi"ni İŞİD-dən azad edib.

Əməliyyatın gedişində İŞİD terror təşkilatının 20 üzvü öldürülüb, qruplaşmaya məxsus çox sayda silah-sursat ələ keçirilib. Əməliyyata, həmçinin ABŞ-a aid "Apache" helikopterləri havadan dəstək verib.

İraq ordusu hazırda "Muvazzafin məhəlləsi"nə doğru hərəkətə keçib.

## "NASA" Hindistanın itən peykini tapıb



"NASA" Hindistanın səkkiz il əvvəl Yer ilə əlaqəsi kəsilən peykini aşkar edib.

Təşkilatın Kaliforniyadakı araşdırma kompleksinə aid radar sistemi Hindistanın "Chandrayaan-1" adlı peykini Ay orbitində tapıb. Peykin radar siqnallarını tutan qrup onu üç ay boyunca təqib edəcək.

Qeyd edək ki, "Chandrayaan-1" peyki Ay səthinin geoloji və kimyəvi xəritəsini çıxarmaq üçün 2008-ci ildə orbitə göndərilib. Peyk iki il ərzində planlaşdırılan missiyasını yerinə yetirib, lakin bəzi hissələrində yaranan nasazlıq səbəbindən 2009-cu il avqustun 28-də onunla əlaqə tamamilə kəsilib.

## Somalidə terror aktı nəticəsində 10 nəfər ölüb, 9-u yaralanıb



Somalinin paytaxtı Moqadişoda və ölkənin şərqində meydana gələn iki ayrı bombalı hücum nəticəsində 10 nəfər ölüb, 9-u yaralanıb.

Hökumət rəsmilərinin və xarici turistlərin qaldığı otelin qarşısında bomba yüklü avtomobil partladılıb.

Hələlik baş verənlərə görə məsuliyyəti heç bir qruplaşma üzərinə götürməyib.

## Boeinq korporasiyası ölkə xaricində ilk zavodunu Çində tikəcək



ABŞ-ın Boeinq korporasiyasının ölkə xaricində ilk zavodunun tikintisi martın sonlarında Çində başlayacaq. Dar füzelyajlı reaktiv Boeinq 737 təyyarələrinin yekun yığım mərkəzi Çjouşan (Çjetszyan vilayəti) şəhərində tikiləcək.

İlk təyyarə sifarişçiyə 2018-ci ilin sonlarında təhvil veriləcək. Müəssisənin illik istehsal gücü 100-dək layner olmalıdır. Bunun sayəsində mərkəzdə iki minə yaxın yeni iş yeri yaranacaq.

Çjetszyan vilayətinin hakimiyyət orqanları ilə korporasiya arasında müvafiq müqavilə ötən ilin oktyabrında imzalanmış, mərkəzin açılması planı isə 2015-ci ildə elan olunmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

# Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun ayrı-ayrı bölmələrində Novruz tonqalı qalanıb



Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun ayrı-ayrı bölmələrində Novruz bayramı münasibətilə silsilə tədbirlər təşkil olunur.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə ön xətdə keçirilən növbəti şənlikdə ilk olaraq bayram tonqalı yandırılıb, Şərur rayon Mədəniyyət və Turizm Şöbəsinin Şərur Xalq Yallı Ansamblının kollektivi müxtəlif rəqs nömrələri ilə əsgərlər qarşısında çıxış ediblər. Bahar qız öz xonçasından əsgərlərə bayram sovqatı paylayıb, əsgərlərimiz bir-birindən şux musiqi sədaları altında oynayıblar.

Milli rəqslərdən ibarət rəngarəng konsert proqramı əsgərlərdə xoş ovqat yaradıb.

"N" hərbi hissəsinin zabitlərindən Azad Abbasov və Ziya Şıxəliyev bildirdilər ki, ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan müstəqil dövlətçilik və həmrəylik ideyası Azərbaycanda inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilib. Dahi şəxsiyyətin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də ardıcıl tədbirlər görülür, dövlət-xalq-ordu birliyi möhkəmlənir. Bu birlik və həmrəylik müstəqil Azərbaycan Ordusunun qüdrətini və şəxsi heyətin döyüş ruhunu artırır. Bayramlarda və əlamətdar günlərdə ictimaiyyətin, müxtəlif təşkilatların nümayəndələrinin hərbi hissələrdə olması, hərbi hissələrə bayram sovqatlarının təqdim edilməsi əsgər və zabitlər tərəfindən böyük minnətdarlıqla qarşılanır və şəxsi heyət arasında əhval-ruhiyyənin daha da yüksəlməsinə səbəb olur. Novruz bayramı münasibətilə hərbi hissədə bayramın yüksək səviyyədə qeyd edilməsi dövlətimizin və xalqımızın hər zaman ordumuzun yanında olmasından xəbər verir.

Hərbçilərimiz vurğuladılar ki, biz də xalqımızın əmin-amanlıqda yaşamasına öz töhfəmizi verməyə, sərhədlərimizin keşiyində ayıq-sayıq dayanmağa çalışacağıq.

Əslən Xocalıdan olan əsgər Cəmşid Qəhrəmanov valideynlərinə salamını və bayram təbriklərini çatdırmağı xahiş etdi və dedi ki, bu gün ön xətdəki hərbi hissədə xidmət keçməkdən qürur duyur, ordumuzun qüdrətinin gündən-günə artdığına çox sevinir.

O, əminliyini bildirdi ki, tezliklə ordumuz işğal altında olan torpaqlarımızı azad edəcək, o və ailəsi yenidən öz şəhərinə, doğma Xocalıya qayıdacaqlar.

Əsgər Elşən Allahverdiyev qeyd etdi ki, bu gün hər bir əsgər arxamızda xalqımızın dayandığını yaxşı bilir. Xalqımızı bir daha əmin edirik ki, müqəddəs Vətən torpaqlarının hər qarışını göz bəbəyi kimi qoruyuruq, üzərimizə düşən vəzifələri layiqincə yerinə yetiririk. Novruz bayramı münasibətilə valideynlərimizi təbrik edərək demək istəyirik ki, bizdən arxayın olsunlar, bizim üçün burada hər cür şərait yaradılıb, heç nədən çətinliyimiz yoxdur.



Düşmənlə ön xətdə qalanan tonqal ətrafında keçirilən şənliyə əsgərlərimizin böyük əhval-ruhiyyə ilə qatılması, yallı rəqsi ilə birlik və həmrəylik nümayiş etdirməsi bir daha göstərdi ki, Azərbaycan Ordusunda böyük ruh yüksəkliyi var. Ən çətin döyüş tapşırığını yerinə yetirməyə hazır olan ordumuzun igid əsgərləri qələbə sevincini də bu şəkildə qeyd edəcəkləri günü, ən əsası isə Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyirlər.

# Əlahiddə Ümumqoşun Orduda məktəblilər arasında "Şahin" hərbi-idman oyunu keçirilib

Yarışdan əvvəl Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Tədbirdə hərbi-vətənpərvərlik mövzusunda çıxış edənlər şahinlərə uğurlar arzulayıblar. Naxçıvan şəhər Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin, Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 17 tam orta məktəbin komandası mübarizə aparıb.



"Şahin" hərbi idman oyununda şagirdlərin sıra hazırlıqları, fiziki gücləri, silahla davranış qaydaları, mülki müdafiə bacarıqları yoxlanılıb.

Naxçıvan şəhər birinciliyində 1-ci yerdə 15 nömrəli, 2-ci yerdə 2 nömrəli, 3-cü yerdə isə 3 və 1 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıblar.

Bu yarışda 1-ci və 2-ci yerlərə sahiblənən komandalar "Şahin" hərbi-idman oyununun muxtar respublika birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

Sonda qalib komandalara təşkilatçıların kubok, diplom və fəxri fərmanları təqdim edilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Hərbi ənənələr, yeniliklər*

# Yak-130 təlim-döyüş təyyarəsi

Yak-130 təlim-döyüş təyyarəsi gələcəyin pilotları olacaq kursantların hərbi biliklərinin artırılması üçün nəzərdə tutulub. Onlara təyyarənin idarə edilməsi, enmə-qalxma manevrlərinin, gündüz vaxtlarında sıx döyüş qaydalarına uyğun, vizual görünüş şəraitində uçuşun hücum və müdafiə manevrlərinin yerinə yetirilməsi, yerüstü və hava hədəflərinə qarşı döyüşdə silahlanma sisteminin mənimsənilməsi öyrədilir.



Bu döyüş təyyarəsi Yakovlev adına konstruktor bürosunda hazırlanıb və 2009-cu ildə uğurlu sınağı həyata keçirilib. 2010-cu ilin fevralında Rusiyanın Hərbi Hava Qüvvələrinin silahlanmasına qəbul edilib. Təyyarənin yeddi daxili nöqtəsində top qurğuları, idarəolunan raket, adi və yönəldici bombalar asılıb. Yak-130-da yaxın manevrli döyüş R-73, R-60, hava-hava sinifli idarə olunan raketlər, idarə olunmayan S-8 raketlərlə B8M-1 bloku, bombalar, 23 mm-li toplarla birlikdə top konteyneri və hər biri 250 mərmidən ibarət 4 ədəd döyüş komplekti və s. yerləşdirilib. Kursantlar təlim keçdikdən sonra onlar döyüş təyyarələrinə təyin olunurlar.

Təyyarə ikiyerli, ikimühərriklidir. O aerodinamuk tərtibata malikdir, qanadları yüksək səviyyədə mexanikləşdirilib. Onun güc qurğusu iki borureaktiv mühərrikdən ibarətdir. Mühərriki yeni elektron-rəqəmli sistemlə tənzimlənir. Uzunluğu 11,9 metr, hündürlüyü 4,76 metr, normal 6350 kiloqram, maksimal uçuş çəkisi isə 9000 kiloqramdır. Daxili yanacağı 850-1750 kiloqram təşkil edir. Sürəti saatda 1000 kilometr, uzaqlığı 1850 kilometr təşkil edir. Döyüş hərəkət radiusu 1315 kilometr, heyəti 2 nəfərdən ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

Bütün sahələrdə dərin böhran yaşayan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Tərəflər bir-birlərini təhdidə davam edirlər. Bu çəkişmələrdən yorulan əhali isə problemlərinin həllini istəyir.

Ermənistanda aprelin 2-də keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca tərəflər arasında gərginlik də artır. Müxalifət-iqtidar çəkişməsi artıq pik həddə çatıb. Nazir vəzifəsindən uzaqlaşdırıldıqdan sonra fəal siyasətçilər Raffi Ovanisyan, Vardan Oskanyan ilə blok yaradan keçmiş müdafiə naziri S.Ohanyan hökumətin hədəfindədir. Baş nazir Karen Karapetyan onu vəzifədə olduğu dövrdə hərbi hissələri talamaqda günahlandırır. S.Ohanyan hakimiyyəti bütün sirləri ifşa etməklə hədələyir.

"Jamanak" qəzetinin məlumatına görə, S.Ohanyan Ermənistan prezidenti Serj Sarkisyana çatdırıb ki, ordudakı özbaşınalıq, rüşvətxorluq və digər məqamlarla bağlı bütün faktları məhkəmə qarşısına çıxaracaq. Kotayk vilayətində keçirilən mitinqdə də keçmiş müdafiə naziri bu barədə danışıb. Bildirib ki, Ermənistan ordusunda hərbi texnika, sursat və yanacaq çatışmazlığı indi də var. Onun istefaya göndərilməsi ilə də vəziyyət düzəlməyib. Ermənistan əhalisi də ölkədə yaxşıya doğru heç nə gözləmir. İnsanlar bitib-tükənməyən problemlərdən yorulublar.

**AZƏRTAC**

Əsgər Nəbiyev Elnur Mahir oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 98
Nüsxə 4650